

**Prezident İlham Əliyev Sumqayıt tibb işçilərini təltif etdi**

2



**Azərbaycanda bir sıra qanunlara dəyişiklik olundu**

2



**Parlament komitələrinin birgə iclasında «Tibbi sığorta haqqında» Qanuna dəyişikliklər müzakirə edildi**

2


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 21-22 (685) 30 noyabr 2019-cu il    Qəzet 1991-ci ildən nəşr olunur    www.tibbqazeti.az


## Mehriban Əliyeva autizm sindromlu uşaqların reabilitasiya mərkəzində olub



2

## Səhiyyə naziri Oqtay Şirəliyev Cəlilabadda vətəndaşları qəbul etdi




2

## Azərbaycan Kardiologiya Cəmiyyətinin VIII Milli Konqresi




7


Tel: (994 12) 530 15 15
530 41 67
530 41 68
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY



www.arash.az


## Görkəmli cərrah Mürsəl Qarayevin 100 illiyi qeyd olundu



4

### *Афоризм*

*Сила воображения важнее знаний.*

*Альберт Эйнштейн*



# Sumqayıt tibb işçiləri təltif edildilər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinin 70 illiyi münasibətilə və şəhərin sosial-iqtisadi inkişafında xidmətlərinə görə bir qrup şəxsin təltif edilməsi ilə bağlı sərəncamlar imzalayıb.**

«Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında» Sərəncama əsasən, üç nəfər «Əməkdar həkim» fəxri adı alıb. Bunlar 4 nömrəli Şəhər Poliklinikasının baş həkimi Canıbəy Ağayev, 1 saylı Doğum Evinin baş həkimi Təranə Rəcəbli və AS-EL klinikasının baş həkimi Asif Kalbalıyevdir.

Dövlət başçısının «Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında» Sərəncamına əsasən, 1 saylı Doğum Evinin anestezioloqu Yelmar Süleymanov və həmin səhiyyə müəssisəsinin tibb bacısı Bibixanım Mailova «Tərəqqi» medalı ilə mükafatlandırılıblar.

# Səhiyyə naziri Cəlilabadda vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə səyyar qəbul günləri təşkil olunur. Bu görüşlərdə vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətlərinə baxılır, onların həlli istiqamətində tədbirlər görülür.**

Tərtib edilmiş cədvələ uyğun olaraq, Səhiyyə naziri Oqtay Şirəliyevin bu qəbildən növbəti qəbul günü Cəlilabad Rayon Mərkəzi Xəstəxanasında keçirilib. Nazir Cəlilabad və Biləsuvar sakinlərini qəbul edib, onların sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Qəbulda qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Onların bəziləri yerindəcə həll edilib, digərlərinin həlli ilə bağlı göstərişlər verilib.

Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti üzrə çatdırılmaq üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

# Azərbaycanda qızılcanın eliminasiyası istiqamətində tədbirlər görülür

**Azərbaycanda infeksiyalara qarşı ciddi mübarizə aparılır. Ölkəmizdə 11 infeksiyaya qarşı uşaqların vaksinasiyası həyata keçirilir. Qızılca da onlardan biridir. Azərbaycanda qızılcanın eliminasiyası istiqamətində tədbirlər görülür.**

AZƏRTACın verdiyi xəbərə görə, bu sözləri Səhiyyə nazirinin müavini Elsevər Ağayev kütləvi informasiya vasitələrinin nümayəndələrinə açıqlamasında deyib.

E.Ağayev ölkəmizdə malyariyanın olmadığını və aparılan mübarizənin bəhrəsini verdiyini də diqqətə çatdırıb.

O həmçinin deyib: «Səhiyyə müəssisələrinin publik hüquqi şəxs statusu alması ilə bağlı ciddi işlər görülür. Bakıda və ölkəmizin regionlarında tibb müəssisələrinin 60 faizə qədəri publik hüquqi şəxsə çevrilib və bu proses davam etdirilir».

Nazir müavini dövlət doğum evlərində valideynlərə süni uşaq qidalarının məcburi satılması barədə məlumatlara da münasibət bildirib: «Nazirlik olaraq apardığımız siyasətin bir istiqamətini körpələrin ana südü ilə qidalandırılmasına üstünlük verilməsi təşkil edir. Təəssüf ki, bəzi şirkətlər süni uşaq qidalarının satışı və təbliğatını düzgün aparmırlar. Körpələrin ana südü ilə qidalandırılması geniş təbliğ olunsa da, bu sahədə vəziyyət hələ də tam arzu olunan kimi deyil. İctimaiyyət və mətbuat nümayəndələri də bu işdə aktiv olmalıdır».

Nazir müavini Azərbaycana idxal olunan dərmanların qeydiyyatının və gömrük prosedurunun sadələşdirilməsi məsələsinə də toxunub. O bildirib ki, bununla əlaqədar qanunvericilikdə dəyişikliklərin edilməsi ilə bağlı təkliflər Nazirlər Kabinetinə təqdim olunub. Onun sözlərinə görə, Səhiyyə Nazirliyi ilə yanaşı, Dövlət Gömrük Komitəsi də bu məsələlərin həyata keçirilməsində aktiv iştirak edir.

# Bir sıra qanunlara dəyişiklik olundu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının «Məişət zorakılığının qarşısının alınması haqqında», «Sosial xidmət haqqında», «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında», «Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında» və «Peşə təhsili haqqında» qanunlarında dəyişiklik edilməsi barədə Qanunu və onun tətbiqi ilə bağlı Sərəncam imzalayıb.

Dəyişikliklər sadalanan qanunların «Psixoloji yardım haqqında» Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması ilə əlaqədardır.

O cümlədən, «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Qanunun 7.0.4-cü maddəsi aşağıdakı redaksiyada verilir: «7.0.4. «Psixoloji yardım haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;».

# Mehriban Əliyeva autizm sindromlu uşaqların reabilitasiya mərkəzində olub

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Nərimanov rayonunda, «Birgə və Sağlam» İctimai Birliyinin nəzdində fəaliyyət göstərən Autizm sindromlu uşaqlar üçün reabilitasiya Mərkəzini ziyarət edib. Heydər Əliyev Fondunun dəstəyi ilə fəaliyyət göstərən bu mərkəzdə Birinci vitse-prezident Mehriban Əliyeva uşaqlarla görüşüb, onların yaşayış şəraiti, göstərilən sosial və reabilitasiya yönümlü xidmətlərlə tanış olub.**



İctimai Birliyin sədri Aytən Eynalova məlumat verib ki, burada autizm sindromlu uşaqların qayğısı ilə müvafiq təlim keçmiş mütəxəssislər məşğul olurlar.

«Birgə və Sağlam» İctimai Birliyi Azərbaycanda autizmspektr pozuntuları olan uşaqlar və onların ailələri ilə işləyən qeyri-hökumət təşkilatıdır. 2013-cü ildən fəaliyyət göstərən təşkilatın məqsədi autizmspektr pozuntuları ilə üzləşən uşaqlara zəruri ünsiyyət və həyat bacarıqlarını öyrətmək, onları müstəqil həyata hazırlamaq üzrə ailələrlə işləmək, ölkə və beynəlxalq səviyyədə autizm sahəsində maarifləndirici layihələr həyata keçirməkdir. Qeyd olunub ki, hazırda Mərkəzdə 70-dək uşaq intensiv terapiyadan faydalanır.

Autizmli uşaqlar öz istedadlarını nümayiş etdiriblər.

Mərkəzin yetirməsi olan, hazırda Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin ikinci kursunda təhsil alan Əlisahib Bayramov da öz məharətini göstərib.

Uşaqlar Birinci vitse-prezidentə əl işlərindən ibarət hədiyyələr təqdim ediblər.

# Parlament komitələrinin birgə iclasında «Tibbi sığorta haqqında» Qanuna dəyişikliklər müzakirə edildi

**Milli Məclisin Səhiyyə və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirilib.**

Qanun layihəsinə təklif olunan dəyişikliklər barədə geniş məlumat verən **Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev** bildirib ki, onlar 3 qrupa bölünür. Bunlar anlayışlarla və sığortaolunanlarla bağlı, eləcə də stilistik dəyişikliklərdir. Bildirilib ki, yeniliklər vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılmasına xidmət edir. Qanuna əlavə ediləcək 16-4-cü maddəyə əsasən, icbari tibbi sığorta ölkənin inzibati ərazi vahidləri üzrə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən müəyyən edilmiş ardıcıllıq nəzərə alınmaqla, mərhələli şəkildə tətbiq olunacaq.



Toplantını açan **Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov** bildirib ki, gündəliyə «Tibbi sığorta haqqında» Qanuna dəyişiklik edilməsi barədə (birinci oxunuş) məsələ daxildir. Komitə sədri diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin 2020-ci il yanvarın 1-dən Azərbaycanda icbari tibbi sığortaya keçidlə bağlı Sərəncam imzalamasından sonra ölkəmizdə bununla bağlı böyük işlər görülüb. Bu Sərəncamdan irəli gələrək «Tibbi sığorta haqqında» Qanunun 8 maddəsinə 126 dəyişiklik təklif olunur. Bu dəyişikliklər əsasən icbari tibbi sığorta ilə bağlıdır.

İclasda çıxış edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə, deputatlardan Vahid Əhmədov, İlham Məmmədov, Qənirə Paşayeva, Rəşad Mahmudov, Şəmsəddin Hacıyev, Məlahət İbrahimqızı, Tahir Mirkişili, İlham Əliyev, Kəmaləddin Qafarov qanun layihəsinin vətəndaşlar tərəfindən səbirsizliklə gözlənildiyini diqqətə çatdırıblar, layihə barədə qeyd və təkliflərini bildiriblər.

İclasda çıxış edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev və maliyyə nazirinin müavini Azər Bayramov deputatların suallarını cavablandırıblar.

Müzakirələrin sonunda «Tibbi sığorta haqqında» Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# İctimai Şura üzvləri Hematologiya və Transfuziologiya İnstitutunda

**Səhiyyə Nazirliyi yanında İctimai Şuranın üzvləri B.Eyvazov adına Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub, tibb müəssisəsinin rəhbərliyi ilə görüşüblər.**




«2016-2020-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı» və «2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı» çərçivəsində icra olunan tədbirlərin monitorinqi məqsədilə keçirilən görüşdə institutun direktoru, tibb üzrə fəlsəfə doktoru Zöhrə Əlimirzəyeva, Səhiyyə Nazirliyinin hematologiya üzrə baş mütəxəssisi, tibb üzrə fəlsəfə doktoru Çingiz Əsədov, institutun nəzdindəki Mərkəzi Qan Bankının rəhbəri Pərvanə Hacıyeva, Səhiyyə Nazirliyi yanında İctimai Şuranın sədr müavini Ziba Nəbiyeva, İctimai Şuranın katibi, tibb elmləri namizədi, həkim-terapevt Tariyel Eyvazov və İctimai Şuranın üzvü, həkim-endokrinoloq Yeganə Sultanova iştirak ediblər.

Qan xidməti müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, qanın və qan komponentlərinin təhlükəsizliyinin təminatı, donor qanının transmissiv infeksiyalara yoxlanılması metodlarının təkmilləşdirilməsi, həmçinin qanın bədxassəli xəstəliklərinin diaqnostikası və müalicəsi, pasiyentlərin sitostatik və innovasion dərman preparatları ilə təmin edilməsi, onların qan komponentlərinə olan tələbatının ödənilməsi istiqamətində görülən işlər geniş müzakirə mövzusu olub.

Sonra İctimai Şura üzvləri Hematologiya və Transfuziologiya İnstitutunun qanın bədxassəli xəstəliklərinin müayinə və diaqnostikası aparılan laboratoriyaları ilə tanış olublar. Qeyd edilib ki, müasir avadanlıq və reaktivlərlə təchiz olunmuş laboratoriyalarda aparılan müayinələrin köməyi ilə xromosom səviyyəsində gedən patoloji dəyişikliklər aşkarlanır və qanın bədxassəli xəstəliklərinin tam diferensial diaqnostikası müəyyən edilir. Bildirilib ki, onkohematoloji xəstəliklərin bir çox növlərinin müalicəsi artıq təkcə kimyaterapiya ilə deyil, elmdə yeni istiqamət olan target, yəni hədəfə molekulyar istiqamətlənmiş preparatlarla aparılır. Hədəf terapiyası isə şiş hüceyrələrinin özündə olan konkret molekullara qarşı yönəldiyinə görə, orqanizmin sağlam hüceyrələrinə daha az təsir edir. Həmçinin vurğulanıb ki, Hematologiya və Transfuziologiya İnstitutunda qeydiyyata alınmış pasiyentlər dövlət hesabına yüksək keyfiyyətli sitostatik və innovasion dərman preparatları ilə təmin edilirlər. Artıq leykozların diaqnostikası və müalicəsi məqsədi ilə xəstələrin digər ölkələrə getməsinə ehtiyac qalmır.

Sonra İnstitutun nəzdində yerləşən Mərkəzi Qan Bankında donorlar üçün yaradılan şərait, maddi-texniki baza, donorların qeydiyyatı, müayinəsi, donorluq məlumatlarının və qan ehtiyatlarına nəzarətin elektronlaşdırılmasını təmin edən «Vahid Qan Bankı» sistemi ilə tanışlıq olub.

Səhiyyə Nazirliyi yanında İctimai Şura üzvlərini maraqlandıran suallar cavablandırılıb. Bu ilin axırlarında İctimai Şura tərəfindən monitorinqin nəticələrinə əsasən təklif və tövsiyələr hazırlanaraq, Səhiyyə Nazirliyinə təqdim olunacaq.

# II Azərbaycan Diabet Konqresi

**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Respublika Endokrinoloji Mərkəzi, Azərbaycan Endokrinologiya, Diabetologiya və Terapevtik Təlimat Assosiasiyası, Azərbaycan Endokrinoloqlar Elmi Cəmiyyəti və Azərbaycan Diabet Cəmiyyətinin təşkilatçılığı, Heydər Əliyev Fondunun dəstəyi ilə II Azərbaycan Diabet Konqresi keçirilib.**



Azərbaycan Endokrinoloqlar Elmi Cəmiyyətinin sədri Valeh Mirzəzadə noyabrın 14-də Dünya Diabetlə Mübarizə Gününün qeyd olunduğunu diqqətə çatdırıb: «Bu gün bütün dünyada mütəxəssislər diabetlə mübarizənin yollarını müzakirə etmək üçün bir araya gəlirlər. Həmin məqsədlə ölkəmizdə təşkil olunmuş konqresdə təcrübələrini bölüşmək üçün yerli və xarici mütəxəssislər iştirak edirlər. Ümid edirəm ki, konqres şəkərli diabetin idarəetmə prosesini ümumiləşdirməyə və şəkərli diabet xəstələrinə göstərilən tibbi yardım xidmətlərini təkmilləşdirməyə imkan verəcək. Konqresdə pre-diabetlə mübarizə üsulları, onun normal vəziyyətdə saxlanılması, şəkərli diabetə keçməsinin qarşısının alınması da müzakirə ediləcək».

V.Mirzəzadə məlumat verib ki, hazırda Azərbaycanda dispanser qeydiyyatında 250 minə yaxın şəkərli diabet xəstəsi var. Lakin xəstəliyindən xəbərsiz olanlar və qeydiyyata durmayanlar da var. Bu da onu deməyə əsas verir ki, ölkəmizdə şəkərli diabet xəstələrinin sayı daha çoxdur.

Heydər Əliyev Fondunun Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri Soltan Məmmədov bildirib ki, Heydər Əliyev Fondu ölkədə həyata keçirilən səhiyyə siyasətinə dəstək olaraq 2004-cü ildən "Diabetli uşaqlara xüsusi qayğı" layihəsi çərçivəsində uşaqları lazımi dərmanlarla təmin edir. Qeyd olunub ki, Heydər Əliyev Fondu Azərbaycanda diabetlə mübarizəyə, eyni zamanda, ürək qüsurlu uşaqların profilaktika, müalicə və əməliyyatlarına, sosial cəhətdən ehtiyacı olan insanlara, əlillərə, ictimai səhiyyə sahəsində aparılan bütün tədbirlərə dəstək göstərir. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə qarşıdakı bir il ərzində ölkə üzrə şəkərli diabet xəstəliyi olan 18 yaşadək şəxslər insulin preparatları və şpris-qələmlərlə təmin ediləcək.

Azərbaycan Endokrinologiya, Diabetologiya və Terapevtik Təlimat Assosiasiyasının sədri, Əməkdar həkim Tamfira Əliyeva, Azərbaycan Diabet Cəmiyyətinin sədri Mömünat Ömərova və Azərbaycan Endokrinoloqlar Elmi Cəmiyyətinin sədr müavini, Respublika Endokrinoloji Mərkəzinin direktor müavini Babək Salek şəkərli diabetin dünyada ən geniş yayılmış qeyri-infeksion epidemiya olduğunu bildiriblər. Onlar diabetlə birgə mübarizənin vacibliyini qeyd edib, əhalinin maarifləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Konqres plenar iclaslarla davam etdirilib.

# Kiyevdə beynəlxalq konfransda Azərbaycan əczaçılarının yaxşı işi qeyd olunub

Azərbaycan MDB ölkələri arasında «OneFlow» beynəlxalq proqram təminatından istifadə edən ilk ölkələrdəndir. 2019-cu ildə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Beynəlxalq dərman monitorinqi proqramının tələbinə uyğun olaraq göndərilən fərdi hadisə barədə təhlükəsizlik hesabatlarının sayına görə Azərbaycan MDB ölkələri arasında birinci yerdə durur.



Bunu Ukraynanın paytaxtı Kiyev şəhərində keçirilən «Dərman vasitələrinin təhlükəsizliyi və qanuni tənzimlənməsi: ixtirasından tibbi istifadəsinə qədər» mövzusunda beşinci elmi-praktiki konfransda ÜST-nin Uppsala Monitorinq Mərkəzinin əməkdaşı Nadya Yastrebova özünün «VigiBase-in analizi» mövzusundakı çıxışında xüsusi vurğulayıb.

Tibb elmləri doktoru, professor Oleksey Viktorovun xatirəsinə həsr olunmuş kontrans Ukrayna Səhiyyə Nazirliyinin, Ukrayna Tibb Elmləri Milli Akademiyasının və Ukrayna Səhiyyə Nazirliyinin Dövlət Ekspertiza Mərkəzinin təşkilatçılığı, müvafiq beynəlxalq təşkilatların iştirakı ilə keçirilib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən verilən məlumata görə, tədbirdə dərman vasitələrinin kliniki sınaqlarında və qeydiyyatdan sonrakı dövrdə, elektron məlumatların istifadəsi də daxil olmaqla, klinik məlumatların idarə edilməsi zamanı dərmanların təkmilləşdirilməsi, risk və siqnal idarəetmə sistemlərinin problemləri, dərman vasitəsinin həyat tsiklində sənədlər toplusuna baxılması, dərman vasitələrinə əlçatanlığın təmin olunmasında formulyar sistemin rolu və zəruri dərman vasitələrinin milli siyahısı müzakirə olunub.

Konfransda ölkəmizi təmsil edən Analitik Ekspertiza Mərkəzinin Farmakonəzarət şöbəsinin müdiri Emin Quliyev «Farmakonəzarət sahəsində tərəflər arasında kommunikasiyanı necə təkmilləşdirmək olar» mövzusunda məruzə ilə çıxış edib.

Toplantının sonunda iştirakçılara beynəlxalq sertifikatlar təqdim olunub.

# AEM idxalçılara şprislərə dair standart barədə məlumat verib

**Standartlaşdırma sistemini təkmilləşdirmək, daxili və xarici bazarda rəqabətə davamlı tibbi avadanlıqları istehsal etmək və həmin malların beynəlxalq norma və qaydalara uyğunlaşdırılmasını, o cümlədən insanların həyat və sağlamlığının qorunmasını təmin etmək məqsədilə bu il sentyabrın 27-də Standartlaşdırma İnstitutu tərəfindən inyeksiya üçün birdəfəlik steril şprislərə dair beynəlxalq standart əsasında işlənib hazırlanmış dövlət standartı qəbul edilib və noyabrın 1-dən qüvvəyə minib.**

Bununla əlaqədar Analitik Ekspertiza Mərkəzində (AEM) idxalçı şirkətlər üçün iclas təşkil edilib.

Toplantıda Mərkəzin mütəxəssisləri inyeksiya üçün birdəfəlik steril şprislər üçün yeni standartlar, bu şprislərin idxalı zamanı tələb olunan sənədlər toplusuna əlavə olunmuş sənədlər haqqında məlumat veriblər.

Şirkət nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

Yeri gəlmişkən, son zamanlar bəzi kütləvi informasiya vasitələrində keyfiyyətsiz şprislərin dövriyyəyə buraxılması barədə məlumatlar yer alıb. Bununla əlaqədar olaraq AEM-in İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Analitik Ekspertiza Mərkəzinə heç bir vətəndaşdan standartlara uyğun olmayan şprislərlə bağlı şikayət daxil olmayıb.

Həmçinin qeyd edilib ki, vətəndaşlar hər hansı şikayətləri yarandığı təqdirdə qurumun qaynar xətt nömrələrinə (012 596 07 12, 012 594 57 27, 012 594 57 37) zəng edərək, yaxud e-mail ünvanına (aem@pharma-.az) yazaraq və ya AEM-in «Bir pəncərə» xidmətinə yaxınlaşaraq, şikayətlərini bildirə bilərlər. Hər bir şikayət dərhal araşdırılır.

# Görkəmli cərrah Mürsəl Qarayevin 100 illiyi qeyd olundu

**Tarixdə elə şəxsiyyətlər var ki, həmişə yadda qalır. Belə insanlardan biri də 1919-cu il noyabrın 4-də Bakı şəhərində məşhur həkim-pediatr Əbülfəz Qarayevin və Sona xanım İskəndər qızının ailəsində anadan olmuş Mürsəl Qarayevdir. Mürsəl xalq həkimi idi. Öz peşəsinin vurğunu, böyük professional idi.**



Bu fikirlər Azərbaycan Tibb Universitetində (ATU) görkəmli tibb xadimi, ötən əsrin 60-cı illərində Azərbaycan Səhiyyə Nazirliyinin baş cərrahı işləmiş Mürsəl Qarayevin 100 illiyi münasibətilə keçirilən tədbirdə səslənib.

ATU-nun təşkilatçılığı ilə gerçəkləşən tədbirin iştirakçıları əvvəlcə Bakı şəhəri 2 saylı Uşaq Klinik Xəstəxanasının qarşısında Mürsəl Qarayevin atası - ilk azərbaycanlı pediatr, Əməkdar elm xadimi Əbülfəz Qarayevin abidəsini ziyarət ediblər, abidənin önünə tər çiçəklər düzüblər.



ATU-nun Tədris Cərrahiyyə Klinikasında keçirilən yubiley tədbirində dövlət və hökumət rəsmiləri - Səhiyyə naziri Oqtay Şirəliyev, Mədəniyyət naziri Əbülfəs Qarayev, Gənclər və İdman naziri Azad Rəhimov, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Fövqəladə Hallar nazirinin birinci müavini, tibb xidməti general-leytenantı Faiq Tağızadə, elm, mədəniyyət və ədəbiyyat xadimləri, ATU-nun professor-müəllim heyəti, Abşeron rayonu Fatmayı kəndinin ağsaqqalları iştirak ediblər.

Tədbirin açılışında universitetin rektoru, professor Gəray Gəraybəyli çıxış edərək qonaqları salamlayıb. Rektor Mürsəl Qarayevin həyat və fəaliyyəti haqqında danışaraq bildirib ki, 1919-cu ildə Bakının Fatmayı kəndində məşhur həkim-pediatr Əbülfəz Qarayevin ailəsində dünyaya gələn Mürsəl Qarayev Azərbaycan tibb elmində çoxprofilli cərrah kimi böyük nüfuz sahibi, cərrahiyyə tariximizdə ən savadlı və peşəkar insanlardan biri olub. 1938-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olan Mürsəl Qarayev 1942-ci ildə Sovet Ordusu sıralarına hərbi xidmətə çağırılıb, Qafqaz Cəbhəsi 65-ci xüsusi motoatıcı briqadasının seçmə-qəbul məntəqəsində ordinator-cərrah işləyib. Döyüşlərin birində yaralanıb və bir müddət müalicə olunandan sonra 1943-cü ilin avqust ayından müharibənin sonuna qədər orduda 482-ci Tibb-sanitar batalyonunda cərrah kimi xidmət edib. Kursk uğrunda döyüşlərdə hərbi eşelonun baş həkimi olub. Budapeşt ətrafındakı döyüşlərdə daha bir dəfə yaralanıb, tibb xidməti kapitanı kimi ordudan tərxis olunub. «Döyüşdə cəsurluğa görə», «Qafqazın müdafiəsinə görə», «Almaniya üzərində Qələbəyə görə» medalları ilə təltif edilib.

Sonradan cərrah kimi fəaliyyətini davam etdirən Mürsəl Qarayev 1960-1964-cü illərdə Səhiyyə Nazirliyinin baş cərrahı işləyib. Namizədlik və doktorluq dissertasiyalarını müdafiə edib.

5000-dən artıq cərrahiyyə əməliyyatı edən doktor Qarayevin son iş yeri o vaxtkı Azərbaycan Dövlət Tibb İnstitutunun Travmatologiya, ortopediya və hərbi səhra cərrahiyyəsi kafedrasında dosent vəzifəsi olub. Görkəmli tibb xadimi 1975-ci ildə vəfat edib.

Sonra əlləri hər zaman insanlara şəfa, ömür bəxş edən Mürsəl Qarayevə həsr edilmiş «Cərrah» sənədli filmi nümayiş olunub. Filmdə cərrahın peşə yoldaşlarının, dostlarının, ailə üzvləri və tələbələrinin xatirələri yer alıb. Xalq rəssamı Tahir Salahov, akademiklər Vasim Məmmədəliyev, Cəmil Əliyev, tibb xidməti general-leytenantı Faiq Tağızadə, Mürsəl Qarayevin ailə üzvləri və yaxınları - oğlu Əbülfəs Qarayev, qardaşı övladları Fərəc Qarayev, Züleyxa Qarayeva, nəvələri unudulmaz insan haqqında düşüncələrini bölüşüblər. Film doktor Qarayevlə tanışlığı olmayan insanların təsəvvüründə belə, onun işıqlı simasını yaradır.

Tədbirin davamında çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov bildirib ki, Mürsəl Qarayev çox virtuoz cərrah idi. Cərrahiyyə elminin bütün sahələrinə dərindən bələd olan Mürsəl Qarayev neçə-neçə cərrahlar nəslinə nümunə olub. Onun belə peşəkar cərrah kimi yetişməsində ilk təcrübəsinin müharibə dövrünə təsadüf etməsi də rol oynayıb. Çünki o, cəbhədə, ağır şəraitdə əməliyyatlar edərkən çox vaxt təkbaşına qərar verməyə məcbur olurdu. Təbii ki, digər mühüm səbəb onun tanınmış pediatr Əbülfəz Qarayevin ailəsində doğulması idi. Əhliman Əmiraslanov cərrahla bağlı xatirələrini də bölüşüb.

Mürsəl Qarayevin yaxın qohumu - Xalq artisti, kinorejissor Oqtay Mirqasımov çıxışı zamanı filmin yaradıcı heyətinə təşəkkür edib. Bildirib ki, belə sənədli filmlərin çəkilməsi Azərbaycan xalqının həyatında mühüm rol oynayan ziyalıların xatirəsinin yaşadılması və gənc nəslə çatdırılması baxımından böyük əhəmiyyətə malikdir. O, Azərbaycanın elm, mədəniyyət tarixinə töhfələr vermiş Qarayevlər və Mirqasımovlar nəslinin davamçısı olmasından qürur duyduğunu dilə gətirib. Vurğulayıb ki, Mürsəl Qarayev onun üçün həmişə nümunə və parlaq bir obraz olub.

Fövqəladə Hallar nazirinin birinci müavini, tibb xidməti general-leytenantı Faiq Tağızadə xatirələrini bölüşərək, Mürsəl Qarayevin müəllim kimi gözəl xüsusiyyətlərindən söz açıb. Bildirib ki, o öz nəslinin parlaq təmsilçisi idi. Azərbaycan cərrahlıq məktəbinin qızıl nəslinin nümayəndəsi olan Mürsəl müəllim ən çətin, çıxılmaz vəziyyətlərdə belə, hökmən bir çıxış yolu tapırdı. Böyük məktəb keçən cərrah qeyri-peşəkarlığa qarşı sərt bir şəxsiyyət idi. Görünür, müharibəni keçməsi, hərbi-səhra cərrahlığı təcrübəsi onda tez və qeyri-adi çıxış yolları tapmaq vərdişi yaratmışdı.

Daha sonra filmin ssenari müəlliflərindən olan Səlim Babullaoğlu çıxış edib. O, filmin ərsəyə gəlməsi, həmçinin tərtibçisi olduğu «Doktor Qarayev» kitabı ilə bağlı düşüncələrini bölüşüb. Vurğulayıb ki, Mürsəl Qarayev həyatını ləyaqətlə, peşəsini sevə-sevə yaşayıb: «O, insanların həyatını xilas edərək yaşadı. Onu həyat və şəfa bəxş etdiyi insanların ümid və inamı böyütdü. O hesab edirdi ki, həkim mütləq vətənpərvər və gözütox olmalıdır. Heç nədən qorxmamalıdır. Gənc həmkarları ilə zəngin təcrübəsini bölüşər, gənclər də onunla teztez məsləhətləşərdilər».

Səlim Babullaoğlu filmin yaradıcı heyətinə, onun ssenari müəlliflərindən biri və həm də rejissoru olan Əməkdar artist Rafiq Haşımova, operator Rüfət Süleymanova təşəkkürünü bildirib.

Tədbirin sonunda Mürsəl Qarayevin ailəsi adından Mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edib. O, tədbirin təşkilatçılarına minnətdarlığını bildirərək vurğulayıb ki, ölkəmizdə tanınmış elm və mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi ənənəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu ənənə Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Mürsəl Qarayevin yubileyinin keçirilməsi ölkə rəhbərliyinin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizin görkəmli insanlarının xatirəsinə diqqətinin təzahürüdür.

Əbülfəs Qarayev təqdim olunan filmin və kitabın müəlliflərinə təşəkkür edib. Bildirib ki, hər bir xalqın görkəmli nümayəndələrinin tarixdə qalması üçün incəsənətin, mədəniyyətin böyük rolu var: «Kitabda və filmdə yaddaqalan anlar, xatirələr yer alıb, atamın fəaliyyəti əks olunub. Filmi izlədikcə, orada səslənən fikirləri eşitdikcə bir daha əmin oluruq ki, bu insan həyatını hədər yaşamayıb».

Sonda tədbir iştirakçılarına «Doktor Qarayev» xatirə kitabı hədiyyə edilib.

## ATU Təbriz Tibb Universiteti ilə əlaqələri genişləndirir

**Azərbaycan Tibb Universitetinin (ATU) elmi işlər üzrə prorektoru Rauf Bəylərov İrana səfəri zamanı Təbriz Tibb Universitetində olub, orada təhsil-tədris prosesi, tələbələr üçün yaradılan şəraitlə tanış olub.**



Prorektor Təbriz Tibb Universitetinin rəhbərliyi ilə də görüşüb. Qeyd olunub ki, Təbriz Tibb Universitetində dünyanın 10-dan çox ölkəsindən, o cümlədən Azərbaycandan tələbələr təhsil alırlar. Bildirilib ki, Təbriz Tibb Universiteti ATU ilə mövcud əməkdaşlığın inkişaf etdirilməsində çox maraqlıdır.

Görüş zamanı hər iki ali məktəb arasında qarşılıqlı əməkdaşlığın yeni istiqamətləri müzakirə olunub, birgə elmi araşdırmaların aparılmasına dair ilkin razılıq əldə edilib. Həmçinin, Tehran Tibb Universitetinin tərkibində olan «Evidence Medicine» bazası ilə birlikdə layihələrin başlanılması təklifi nəzərdən keçirilib.

Qeyd edək ki, ATU və Təbriz Tibb Universiteti arasında imzalanan memorandumun şərtlərinə əsasən, azərbaycanlı rezidentlərin İrandakı ali məktəbin fərqli bazalarına göndərilməsi nəzərdə tutulub.

## Məktəb idman zalı üçün sanitar-gigiyenik tələblər

### *Həkimləri Təkmilləşdirmə İnstitutunda bu mövzuda seminar keçirilib*

**Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) Gigiyena kafedrası Davamlı Tibbi Təhsil Proqramına uyğun olaraq Bakı şəhəri və regionların həkim-gigiyenaçılarının iştirakı ilə «Məktəb idman zalı üçün sanitar-gigiyenik tələblər» mövzusunda seminar keçirib.**



Təlimin əsas məqsədi məktəbdə idman zalının ölçüləri, hava-istilik rejimi, mikroiqlim, havalandırma, işıqlandırma məsələlərini və bədən tərbiyəsi dərslərinin təhlükəsizliyini təmin etmək yollarını həkim-gigiyenaçılara çatdırmaqdan ibarət olub.

Dərsləri ADHTİ-nin Gigiyena kafedrasının müdiri, dosent Məmmədəli Meybəliyev və baş müəllim Natiqə İsmayılova aparıblar.

# III Bakı Endoskopik Forumu keçirilib

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzində (MOM) Azərbaycan Onkoloqlar Cəmiyyətinin dəstəyi ilə III Bakı Endoskopik Forumu keçirilib.**

Azərbaycanın tanınmış həkim-qastroenteroloq, onkoloq, cərrah və pediatrlarının iştirak etdiyi tədbiri açan Milli Onkologiya Mərkəzinin direktor müavini Fuad Quliyev tədbir iştirakçılarını MOM-un baş direktoru, akademik Cəmil Əliyevin adından salamlayıb və mərkəzin fəaliyyəti ilə bağlı məlumat verib. O, dünyanın ən tanınmış onkoloji mərkəzləri ilə elmi tədqiqatlar, kadr mübadiləsi və yeni innovasiyaların tətbiqi sahəsində geniş əməkdaşlıq əlaqələrinə malik Mərkəzin məhz dövlətin daimi diqqət və qayğısı nəticəsində Cənubi Qafqazın ən qabaqcıl elm və şəfa məbədinə çevrildiyini vurğulayıb. F.Quliyev bildirib ki, bu tədbir Azərbaycanda üçüncü ildir keçirilir. Ötən ilin oktyabrında Milli Onkologiya Mərkəzində uğurla təşkil edilmiş II Bakı Endoskopik Forumu nəinki ölkəmizdə, hətta onun hüdudlarından uzaqlarda da böyük marağa səbəb olmuşdu.

Tədbirdə Rusiyanın, Ukraynanın, Belarusun, həmçinin Azərbaycan Milli Onkologiya Mərkəzinin aparıcı həkimlərinin məruzələri dinlənilib və elmi fikir mübadiləsi aparılıb.

Forumda Milli Onkologiya



Mərkəzinin əməkdaşları Elman İbrahimov «MOM-da Kron xəstəliyi qeyd olunan xəstələrdə FACİZE təsnifatı», Həcər Həsənova «Milli Onkologiya Mərkəzində uşaq endoskopiyası», Nigar Əliyeva «Xroniki radiasion proktitin endoskopik müalicəsi üzrə təcrübəmiz», Əsəd Hacıyev «Qida borusu və onun anastomozlarının çapıq mənşəli daralmalarının endoskopik müalicə təcrübəsi», həmçinin Ukraynanın Oberiq Universal Xəstəxanasının endoskopiya və mənfəzdaxili cərrahiyyə şöbəsinin rəhbəri Vladislav Yakovenko «Endoskopistin gündəlik təcrübəsində endosonoqrafiya» və «Submukozal sahədə əməliyyatlar təcrübəsi», Belarusun



Minsk Uşaq Qastroenteroloji Klinikasının diaqnostika şöbəsinin rəhbəri, Belarus Respublikasının uşaq endoskopiyası üzrə baş mütəxəssisi Kiril Maraxovski «Yeni doğulmuş və bir yaşınadək uşaqların endoskopiyası» və «Mədə-bağırsaq traktının öyrənilməsinin funksional üsulları və onların tibbi praktikaya təsiri» mövzularında məruzələrlə çıxış ediblər.

Mulyajlar üzərində mütəxəssis-moderatorlar tərəfindən keçirilmiş endoskopik təlimlər və əməliyyatların canlı nümayişi iştirakçıların böyük marağına səbəb olub.

Milli Onkologiya Mərkəzində keçirilən məruzələr, müzakirələr və əməliyyatlar telekörpü vasitəsilə Mərkəzi Klinika Gəncə Xəstəxanasının akt zalında Gəncə və ətraf rayonlardan olan həkimlər üçün canlı nümayiş etdirilib.

Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası tərəfindən akkreditasiyadan keçib və 16 kredit vahidi alıb.

Forumun sonunda iştirakçı həkim və mütəxəssislərə müvafiq sertifikatlar təqdim edilib.

## Azərbaycanlı cərrahın əməliyyatı təlim videosu kimi yayımlanacaq

**Fransada laparoskopik təlim mərkəzi olan IRCAD hər il minlərlə cərraha WeBSurg virtual universitet vasitəsilə cərrahi təhsil almağa imkan verir. Həmin tədris prosesində beynəlxalq standartlara uyğun olan əməliyyat videoları istifadə olunur.**




Respublika Müalicə Diaqnostika Mərkəzinin həkim-cərrahı İlqar İsmayılovun düz bağırsaq xərçəngi üzərində icra etdiyi laparoskopik əməliyyat təlim videosu kimi dünyanın 400 mindən çox cərrahına tədris olunacaq.

Mərkəzin mətbuat xidmətindən verilən məlumata görə, bu, cərrahın WeBSurg-də yayımlanan sayca ikinci videosudur. Qeyd edək ki, bir neçə il əvvəl onun icra etdiyi laparoskopik bağırsaq əməliyyatı postsovet məkanında ilk dəfə olaraq IRCAD-ın təhsil proqramına daxil edilmişdi və WeBSurg həmin əməliyyatın videosunu yayımlamışdı.

## Respublika Müalicə Diaqnostika Mərkəzində beynəlxalq ginekoloji konfrans



**Respublika Müalicə Diaqnostika Mərkəzində «Ginekologiyada təkmilləşmiş endoskopik cərrahiyyə: effektiv olmağın və fəsadların qarşısını almağın yolları» mövzusunda beynəlxalq tibbi konfrans keçirilib.**

İki günlük tədbirdə xarici ölkələrdən dəvət olunmuş professorlar Revaz Botçorişvili və Laura Kapuşeva müxtəlif mövzularda mühazirələr oxuyub, müxtəlif növ laparoskopik və histeroskopik əməliyyatlar həyata keçiriblər.

Konfransın ilk günü sırf nəzəri mövzulara həsr olunub. Növbəti gündə üç çoxmərhələli əməliyyat icra edilib. Həmin əməliyyatlar canlı şəkildə konfrans iştirakçılarına nümayiş olunub. Bir neçə saat davam edən canlı əməliyyatlar uğurla başa çatdırılıb.

Qeyd edək ki, Respublika Diaqnostika Mərkəzi gələn il də xarici mütəxəssislərin iştirakı ilə konfrans və ustad dərsləri keçirməyi nəzərdə tutub.

## Bakıda VI Beynəlxalq Tibbi Treninq Günləri

**Bakıda Azərbaycan Minimal İnvaziv Cərrahlar İctimai Birliyinin və Azərbaycan-Almaniya Tibbi Əməkdaşlıq Cəmiyyətinin birgə təşkilatçılığı ilə VI Beynəlxalq Tibbi Treninq Günləri keçirilib.**

Beynəlxalq tədbirin açılış mərasimində çıxış edən Tibb Konqresinin Azərbaycan tərəfdən prezidenti, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin professoru, Azərbaycan-Almaniya Tibbi Əməkdaşlıq Cəmiyyətinin sədri, professor Qurbanxan Müslümov bildirib ki, üç gün davam edəcək treninqlər Səhiyyə Nazirliyi tərəfindən akkreditasiya olunaraq, 22 davamlı tibbi təhsil balı ilə qiymətləndirilib: «Əsası 2014-cü ildə Milli Onkologiya Mərkəzi və Azərbaycan-Almaniya Tibbi Əməkdaşlıq Cəmiyyəti tərəfindən qoyulmuş bu treninqlər zamanı Azərbaycan, Rusiya və Mərkəzi Asiya ölkələrindən gəlmiş 100-dən çox



həkim, rezident və tələbələr üçün laparoskopik və ümumi cərrahiyyə, endoskopiya, ultrasonoqrafiya, ginekologiya, kardiopulmonar reanimasiya və lazer təbabəti üzrə Avropada tanınmış Davos Tibb Kursları və digər tanınmış proqramlar əsasında beynəlxalq səviyyəli treninqlər və vərdişlər kursu təşkil ediləcək».

Tədbirdə çıxış edən professorlar Surxay Hadıyev, Kamran Musayev, Ahmet Memiş və digər alimlər bu



tip tədbirlərin tibbin inkişafında mühüm rol oynadığını, gənc kadrların hazırlanması, həkimlərin Davamlı Tibb Təhsili proqramı üzrə təkmilləşməsi baxımından çox əhəmiyyətli olduğunu, xüsusən də gənc mütəxəssislər üçün təcrübə məşğələlərinin önəmini qeyd ediblər.

Tədbir Azərbaycanın tanınmış professor və tibb mütəxəssislərinin moderatorluğu ilə elmi mühazirələr və panel diskussiyalarla davam edib. Dünya səviyyəli alimlər tərəfindən Azərbaycandan və xarici ölkələrdən gəlmiş iştirakçılara tibbin ən aktual problemlərinə həsr olunmuş məruzələr oxunulub, ağır kliniki halların müzakirəsi, azərbaycanlı mütəxəssislərin bilik və təcrübə mübadiləsi aparılıb.

Qeyd edək ki, VI Bakı Beynəlxalq Tibbi Treninq Günlərində təlimlər Avropada həkim və tələbələrə xüsusi peşə vərdişlərinin öyrədilməsi məqsədilə tədris edilən texnikadan istifadə olunmaqla, ən müasir avadanlıqlar, simulyatorlar və tibbi modellər üzərində aparılıb. Tədbir çərçivəsində müxtəlif ixtisaslar üzrə müvafiq klinikalarda ustad dərsləri təşkil edilib, həmçinin müxtəlif həcmli cərrahi əməliyyatlar konfrans zalına birbaşa, canlı translyasiya olunub, eyni zamanda, interaktiv müzakirələr aparılıb.

# İlk azərbaycanlı cərrah-ginekoloq



**XIX əsrin sonu - XX əsrin əvvəllərində Rusiyanın müxtəlif ali təhsil ocaqlarında oxumuş, daha sonra Azərbaycan səhiyyəsinin inkişafında mühüm rol oynamış həkimlərimiz az olmayıb. M.Mirqasımov, M.Topçubaşov, Ə.Qarayev və başqaları bu qəbildəndir. Belələrindən biri də yüksək ixtisaslı mütəxəssis, Azərbaycanda mama-ginekoloji xidmətin təşkilatçılarından biri olan Mustafa Mahmud oğlu Hacıqasımov olub. Qeyd edək ki, XX yüzilliyin əvvəllərində Azərbaycanda mamalıq-ginekologiya üzrə cəmi 6 mütəxəssisdən yalnız biri azərbaycanlı olub. Bu, Mustafa Hacıqasımov idi.**

Mustafa Hacıqasımov 12 iyun 1883-cü ildə Ağstafada dünyaya gəlib. 1904-cü ildə Tiflis I gimnaziyasını bitirərək, Xarkov Universitetinin Tibb fakültəsinə daxil olub. Bir çox mənbələrdə onun Hacı Zeynalabdin Tağıyevin təqaüdü ilə oxuduğu göstərilir. 1910-cu ildə ali təhsilini başa vuran Mustafa 1914-cü ilədək Xarkov Universitetinin Mamalıq-ginekologiya klinikasında çalışıb. I Dünya müharibəsi dövründə - 1914-1917-ci illərdə Xarkov Tibb Cəmiyyətinin şəhər hospitalının baş ordinatoru işləyib. 1917-1918-ci illərdə cərrahiyyə hospitalının baş həkimi olub.

Düz 100 il bundan qabaq - 1919-cu ildə Bakıya qayıdan M.Hacıqasımov o vaxtdan 1938-ci ilədək M.Əzizbəyov adına xəstəxananın Ginekologiya şöbəsinin müdiri kimi çalışıb, eyni zamanda, mamalıq kurslarına rəhbərlik edib. 1927-1938-ci illərdə doğum evinin direktoru vəzifəsində işləyib, həmin müddətdə çarpayıların sayı 24-dən 400-ə çatdırılıb, onun başçılığı ilə 6000-dən çox əməliyyat aparılıb. Xəstəxana Azərbaycan Tibb Universitetinin kadr hazırlığı üzrə bazasına çevrilib. M.Hacıqasımov doğum evi ilə bərabər, Azərbaycan Tibb Universitetinin mamalıq-ginekologiya klinikasında da çalışıb.



Mustafa müəllim nəinki Azərbaycanda, keçmiş ittifaqın bir sıra respublikalarında və hətta xaricdə tanınan həkimlərdən idi. 1931-ci ildə Berlində nəşr edilən jurnalların birində onun məqaləsi dərc olunmuşdu. Xalq arasında böyük hörmətə malik bu nurlu şəxsiyyət elmi-tədqiqat və həkimlik fəaliyyəti ilə tibb elmləri doktoru elmi dərəcəsi, professor elmi adı qazanmış, Respublikanın Əməkdar həkimi, Əməkdar elm xadimi fəxri adlarına layiq görülmüşdü.

Azərbaycan Təbabəti Muzeyinin fondunda M.Hacıqasımova dair sənədləri araşdırarkən onun bir deputat kimi öz xalqı qarşısında xidmətlərini əks etdirən məlumatlarla rastlaşırıq. Ona ünvanlanan məktublardan aydın olur ki, yetirmələri müəllimlərini daim yad etmiş, onunla sıx təmasda olmuşlar. Tanınmış həkimlərdən biri olan Odenov Hacıqasımova ünvanladığı məktubda onu uzun illər ərzində Azərbaycan xalqına misilsiz xidmətlər göstərən bir şəxs kimi qiymətləndirir, bunu öz arzuları ilə maraqlı tərzdə ifadə edir: "...xalqın xoşbəxtliyi üçün sizə can sağlığı və uzun ömür arzulayıram". Bəli, M.Hacıqasımovun fəaliyyətini nəzərdən keçirərkən biz onun xalqın xoşbəxtliyi uğrunda çalışanlardan biri olduğunu görürük.

Millətinin, xüsusən ana və uşaqların sağlamlığı yolunda var qüvvəsini əsirgəməyən, Azərbaycanda mamalıq-ginekologiya üzrə ilk milli kadrlardan biri olan M.Hacıqasımovun adı yaddaşlarda əbədiləşdirilib. Belə ki, uzun illər fəaliyyət göstərdiyi Əzizbəyov adına 1 saylı Doğum Evi sonralar onun adını daşıyırdı. Onun rəhbərliyi altında insanlara sağlamlıq və yaradıcı əmək sevinci bəxş etməyi öyrənmiş minlərlə həkim Mustafa Hacıqasımovun işini yaşadıb, onun yolunu şərəflə davam etdirib.

**Sadatxan ƏLİYEV,**
**Azərbaycan Təbabəti Muzeyinin direktoru,**
**Sevinc MANİYEVA,**
**muzeyin baş mühafizi**

## Tibb Universiteti ilə Türkiyənin Boylam Psixiatrik Xəstəxanası arasında əməkdaşlıq perspektivləri müzakirə edilib

**Azərbaycan Tibb Universitetinin (ATU) rektoru, professor Gəray Gəraybəyli Türkiyənin Boylam Psixiatrik Xəstəxanasının professoru, psixiatr Ertuğrul Köroğlu ilə görüşüb.**



Görüş zamanı türkiyəli professor təmsil etdiyi xəstəxana barədə məlumat verib: «Ankarada yerləşən Boylam Psixiatrik Xəstəxanasında ruhi, alkoqol qəbulu ilə bağlı yaranmış xəstəliklər, narkoloji problemlər üzrə ixtisaslaşmış mütəxəssislər çalışır. Türkiyənin bu ən böyük psixiatrik xəstəxanası 51 yataqdan ibarətdir. Azərbaycan Tibb Universiteti ilə əlaqələrimizin sıx olmasını arzu edirəm».

ATU-nun rektoru Gəray Gəraybəyli də rəhbərlik etdiyi təhsil ocağı barədə qonağı məlumatlandırıb. Universitetin nəzdində 4 klinikanın olduğunu qeyd edən rektor Azərbaycanda təbabət, o cümlədən psixiatriya sahəsində müntəzəm olaraq yeniliklərin həyata keçirildiyini vurğulayıb. Rektorluqla yanaşı, həkim kimi də fəaliyyət göstərdiyini deyən G.Gəraybəyli həftədə iki dəfə xəstəxanaya baş çəkdiyini və xəstələri müayinə etdiyini, eləcə də, kafedrada mühazirələr oxuduğunu bildirib. Gələn ildən ATU-da magistratura pilləsində klinik psixologiya ixtisası açılacağını diqqətə çatdıran rektor, Ertuğrul Köroğlunu burada "dəvət edilmiş professor" kimi görməkdən məmnun olacağını vurğulayıb.

Görüşdə psixiatriya sahəsindəki yeniliklərdən, ATU ilə Boylam Psixiatrik Xəstəxanası arasında gələcəkdə qarşılıqlı əlaqələrin qurulması məsələlərindən danışılıb.

## Bakıda III Beynəlxalq uroonkologiya simpoziumu keçirilib

**Bakıda keçirilən III Beynəlxalq uroonkologiya simpoziumunda uroonkoloji xəstəliklərə müasir yanaşmanın rolu, ona müxtəlif yanaşma aspektləri, xüsusilə urologiya və onkologiya sahələrində olan yeniliklər və problemlər müzakirə olunub.**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin (MOM) təşkilatçılığı ilə baş tutan simpoziumda Mərkəzin direktor müavini Fuad Quliyev çıxış edərək, tədbir iştirakçılarını MOM-un baş direktoru, akademik Cəmil Əliyevin adından salamlayıb və mərkəzin fəaliyyəti ilə bağlı məlumat verib. Tədbirdə Azərbaycan ilə yanaşı, Türkiyə, Almaniya, Niderland, Rusiya, Ukrayna, Belarus və Gürcüstandan mütəxəssislərin uroonkoloji xəstəlikləri əhatə edən təqdimatlarla çıxış edəcəyini söyləyən direktor müavininin sözlərinə görə, bu cür tədbirlər Azərbaycan səhiyyəsində son illərdə əldə olunan nailiyyətləri paylaşmağa, həm də təcrübə mübadiləsi aparmağa imkan verir. Fuad Quliyev ölkədə bütün sahələrdə olduğu kimi, uroonkologiya sahəsində də ciddi irəliləyişlər olduğunu bildirib.

Sonra professor Kamal Abdullayev, professor Serdar Tekgül (Türkiyə) və digər mötəbər qonaqlar çıxış edərək, belə tədbirlərin Azərbaycanda keçirilməsindən məmnun olduqlarını, uroonkologiya sahəsində dünyaca məşhur mütəxəssislərin təcrübə mübadiləsinin inkişafa səbəb olacağını vurğulayıb,



simpoziumun işinə uğurlar arzulayıblar.

Elmi forumda «Urologiya təlimində standartlar», «Azərbaycanda uroonkoloji xidmətin təşkili», «Prostat xərçənginin diaqnostikasında MRİ və füzyon biopsiya», «Prostat xərçənginin skrininqi: mənfi və müsbət tərəfləri», «Prostat xərçəngində fokal terapiya», «Prostat xərçəngində aktiv müşahidə», «Radikal prostatektomiya», «Çox yüksək riskli prostat xərçənginin cərrahi müalicəsi», «Metastatik prostat xərçənginin müalicəsində yeni dövr», «Qeyri-invaziv sidik kisəsi xərçəngində və ya yuxarı traktın şişlərində inkişaf etmiş görüntüləmə», «Ortotopik sidik kisəsi», «Hissəvi nefrektomiyada hemostaz üsulları», «Laparoskopik radikal nefrektomiya: böyrək şişlərinin effektiv müalicə üsulu», «Böyrək xərçəngində sitoreduktiv cərrahiyyənin yeri», «Genetik markerlərin böyrək xərçəngində proqnostik əhəmiyyəti», «Laparoskopik adrenalektomiya» və digər mövzularda məruzələr dinlənilib, elmi fikir mübadiləsi aparılıb.

